**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞİRVAN AŞIQ HAVALARININ JANR VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ. Zülfiyyə Ramiz qızı Hüseynova

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı:

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Fattax Xalıq oğlu Xalıq-zadə**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Cəmilə İsmayıl qızı Həsənova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Ələşrəf qızı Atakişiyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Hafiz Veys oğlu Kərimov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: ____________ Sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: ____________ Sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan aşıq sənəti xalqın milli-mənəvi sərvəti, maddi-mədəni dəyəri olub, özündə əsrlərlə formalaşmış zəngin yaradıcılıq ənənələri, tarixi inkişaf mərhələlərini ehtiva edən sinkretik və sintetik sənət növüdür. Mədəniyyətin bir çox istiqamətlərini birləşdirən aşıq yaradıcılığı müxtəlif elm sahələri üçün maraqlı tədqiqat obyekti olmuş, xüsusilə filoloq, folklorşünas və musiqişünas alimlərin araşdırmalarında onu əhatə edən problemlər işıqlandırılmışdır. XX əsrin birinci yarısından başlayaraq aşıq sənətinin musiqişünaslar tərəfindən öyrənilməsi əhəmiyyətli elmi irsin ərsəyə gəlməsi ilə nəticələnmişdir. Bununla yanaşı, daim inkişafda olub, zənginləşən, müasirləşən aşıq sənətində hər zaman həllini gözləyən məsələlər qalmaqdadır və bunun üçün geniş perspektivlər mövcuddur.

Tarixən şifahi yolla ötürülərək yaşadılan aşıq sənəti, bir çox təzyiqlərə, dəyişikliklərə məruz qalmasına baxmayaraq, günümüzə qədər gəlib çatmış, özünəməxsusluğunu qoruyub saxlamağı bacarmışdır. Geniş bir arealda yayılaraq, mühitlər üzrə qruplaşmış, həmçinin bu mühitlərin daxilində məktəblər yaranmışdır. Hər bir mühit zəngin repertuarı, ifaçılıq ənənələri və özünəməxsus dialektoloji xüsusiyyətləri ilə fərqlənərək günümüzdə də tədqiqatlar üçün yeni məsələlər ortaya çıxarmaqdadır. Aşıqşünaslıqda regional ənənələrin öyrənilməsi xüsusi istiqamət kimi XX əsrin ikinci yarısından başlayaraq geniş vüsət almışdır. Bu mənada ənənə və müasirliyi özündə birləşdirən Şirvan aşıq mühitinin zəngin dastan və hava repertuarı, ifaçılıq xüsusiyyətlərinin araşdırılması mühüm məsələ kimi dissertasiya işinin mövzusunu aktuallaşdırmış olur.

Filoloq və musiqişünaslar tərəfindən həyata keçirilmiş çoxsaylı araşdırmalar müsbət nəticələr versə də, bu sahənin hərtərəfli açılması, musiqi dialektologiyasının tədqiqi yenə də müəyyən problemlərin öyrənilməsini zəruri edir. Təqdim olunan hər bir işdə isə müəyyən problem həllini tapmaqla yanaşı, tədqiqatçılar qarşısında yeni perspektivlər açır. Bu mənada aşıq sənətinin mühit və məktəblər üzrə öyrənilməsi müasir dövrdə daha çox müşahidə olunur

və hazırkı dissertasiyanın mövzusunu aktual edən göstəricilərdən biri kimi çıxış edir.

1928-ci ildən başlayaraq müxtəlif fasilələrlə təşkil olunan Azərbaycan Aşıqlarının Qurultayları, o cümlədən 2008-ci ildə keçirilən V qurultay, 2009-cu ildə isə Azərbaycan xalqının milli sənət nümunəsi kimi UNESCO-nun (Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitənin) siyahısına daxil olunması onun öyrənilməsinə marağı daha da artırdı. Ölkənin mədəni həyatında baş verən bu mühüm hadisələr diqqəti bir daha aşıq sənətinə yönəltmiş oldu ki, onun müasir bədii-estetik meyarlar əldə etməsi ilə nəticələndi. Aşıq repertuarının və ifaçılıq ənənələrinin qorunması, regional xüsusiyyətlərinin saxlanılması və gələcək nəsillərə ötürülməsi müasir dövrün prioritet məsələsidir. Bu baxımdan Şirvan aşıq mühitinin tədqiqi regional ənənələrin yaşadılması və gənc nəslə ötürülməsi aktuallıq kəsb edir. Dissertasiya işinin mövzusu mühitin janr və üslub xüsusiyyətlərinin öyrənilməsini ehtiva edərək, regional araşdırmaların zənginləşməsinə zəmin yaradır, eyni zamanda gələcək tədqiqatlar üçün bir sıra perspektivlər ortaya qoyur.

Aşıq sənətinin musiqişünaslıq baxımdan öyrənilməsinə bir qədər gec başlanılsa da, təqdiqiqatçılar çox sayda elmi əhəmiyyətli nəticələr əldə etmişlər. Azərbaycan musiqi elminin inkişafında müstəsna xidmətləri olmuş dahi Ü.Hacıbəyli ilk dəfə aşıq sənətinin milli musiqidə tutduğu mövqeyi, dəstə tərkibi məsələlərinə toxunmuş, eləcə də havaların müəyyən təsnifatını (bəhrli-bəhrsiz, lirik-epik) vermişdir[1]. Daha sonra Bülbül aşıq yaradıcılığı, repertuar və onların təsnifat məsələlərinin ümumi cəhətlərini əxz etmişdir[2]. Ə.Bədəlbəyli isə aşıq sözünün etimolologiyası və aşıq sənətilə bağlı bəzi terminoloji məsələlərə aydınlıq gətirmişdir[3]. M.İsmayılov tədqiqatlarında bu məsələləri bir qədər də inkişaf etdirərək, aşıq

[1] Hacıbəyov, Ü.Ə. Seçilmiş əsərləri / Ü.Ə.Hacıbəyov. – Bakı:Yazıçı, – 1985. – 653 s.
[2] Bülbül. Seçilmiş məqalə və məruzələri / tərt., komentari və qeydlər ed. Ə.İ.İsazadə, Q.A.Qasımov – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, – 1968. – 138 s.
[3] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 511 s.

yaradıcılığını məzmununa əsasən növlərə ayırmış, havaların xarakterik cəhətlərini vermiş, ifa üsullarına görə qruplaşdırmışdır[4].

Azərbaycan musiqişünaslığında aşıq sənətinin ilk dəfə geniş şəkildə araşdırılması Ə.Eldarova tərəfindən həyata keçirilmişdir. O, aşıq sənətini ədəbi-tarixi, nəzəri aspektlərdən tədqiq etmiş, ən əhəmiyyətlisi isə aşıqları ifaçılıq ənənələrinə görə mühitlərə ayırmışdır. Göyçə, Naxçıvan, Borçalı, Tovuz, Gəncə, Qazax aşıq mühitlərilə yanaşı, Şirvan aşıq mühiti də musiqişünasın tədqiqat obyektinə çevrilmişdir[5]. Alim, aşıq sənətində özünəməxsus ifa üslubu, dastan və havacatı, ənənələrilə seçilən mühit haqqında subyektiv fikirlərini qeyd etmiş, havaların məqam, forma xüsusiyyətlərinə aydınlıq gətirmiş, saz aləti və kökləri haqqında geniş məlumat vermişdir. Onun elmi yaradıcılığında aşıq sənətinə dair çoxsaylı və müxtəlif tipli terminlərin şərhi də öz əksini tapmışdır[6].

Musiqişünasların tədqiqatlarında Azərbaycan aşıq sənətinin araşdırılmasından danışarkən, professor T.Məmmədovun adı xüsusilə qeyd edilməlidir. Onun bu istiqamətdə apardığı elmi araşdırmaları müasir musiqişünaslıq üçün əvəzolunmaz töhfədir. O, Ə.Eldarovanın mühitlər üzrə apardığı bölgünü genişləndirərək, Azərbaycan aşıq yaradıcılığına daha geniş müstəvidə baxmış (Təbriz, Qaradağ, Dərələyəz və b.), həmçinin aşıq musiqisinin mühit və məktəblərini, tarixi, poetik və melodik məsələlərini araşdırmış, ənənəvi aşıq havaları və "Koroğlu" havalarını nota salmışdır[7].

Aşıq sənətinin tədqiqi professor K.Dadaş-zadənin də tədqiqatlarında yer almışdır. Musiqişünas öz əsərlərində aşıq sənətinin bir sıra nəzəri məsələlərini, o cümlədən epos – dastanın bədii musiqili-poetik sistem kimi tədqiqini həyata keçirmiş[8],

---

[4] İsmayılov, H.Ə. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri / H.Ə.İsmayılov. – Bakı: Elm, – 2006, – 310 s.

[5] Eldarova, Ə.M. Azərbaycan aşıq sənəti / Ə.M.Eldarova. – Bakı: Elm, – 1986. – 165 s.

[6] Eldarova, Ə.M Azərbaycan aşıq sənəti və ədəbi musiqi terminləri lüğəti / Ə.M.Eldarova. – Bakı: Elm, – 1985.– 86s.

[7] Məmmədov, T.A. Azərbaycan xalq professional musiqisi: aşıq sənəti // – Bakı: Musiqi dünyası. – 2001. № 1-2, – s. 122-129.

[8] Дадаш-заде, К.Г. Знаковая система дастана / К. Г.Дадаш-заде. – Баку: Нурлан, –2004. –292 с.

Azərbaycan qəhrəmanlıq eposunda musiqi sinergetikası məsələlərini araşdırmış[9], eləcə də müxtəlif bölgələrdə aşıq yaradıcılığına dair ənənə və meyarları, musiqi dialektoloji və b. problemləri hərtərəfli şəkildə açmışdır[10]. Şirvan aşıq mühitinin ustad aşıqlarından olan Şamil Piriyevdən bəhs edən metodik vəsaitində isə aşığın həyat və sənət fəaliyyətini işıqlandırmaqla yanaşı, repertuarına daxil olan havaları da nota da salmışdır[11].

Şirvan aşıq mühitinə məxsus havaların tədqiqata cəlb olunmasında professor İ.Köçərli əhəmiyyətli işlər görmüşdür. Onun sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim etdiyi dissertasiya işində "Şikəstə" janrı tədqiq olunmuş, bir sıra nümunələrlə yanaşı, Şirvan şikəstələri nəzərdən keçirilmiş və musiqi-nəzəri cəhətdən təhlil edilmişdir[12]. Musiqişünasın sənətşünaslıq doktoru elmi dərəcəsini almaq üçün təqdim etdiyi dissertasiya işi də aşıq sənətində sinkretizm və sintez problemlərinin araşdırılması baxımdan elmə qiymətli töhfələr vermişdir[13]. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent K.Atakişiyeva xanəndə və aşıq sənətinin qarşılıqlı əlaqələrini araşdırmış, eləcə də bir neçə Şirvan aşıq havasını tədqiqata cəlb etmişdir[14].

Aşıq sənətinin regional kontesktdə öyrənilməsi XX əsrin ikinci yarısından etibarən daha geniş vüsət alaraq bir sıra maraqlı tədqiqatların aparılması ilə səciyyəvi olmuşdur. Belə ki, Şirvan aşıq mühitinə həsr olunmuş ilk dissertasiya işi sənətşünaslıq üzrə fəlsəfə doktoru X.Əliyeva tərəfindən ərsəyə gəlmişdir. Musiqişünas sahə araşdırmaları və yazılı mənbələr əsasında əldə etdiyi informasiyanı ümumiləşdirərək, mühitin ənənəvi cəhətlərini müəyyən etmiş,

---

[9] Dadaş-zadə, K.H. Azərbaycan qəhrəmanlıq eposunun musiqi sinergetikası: / sənətşünaslıq elmlər doktoru dis.avtoreferatı. / - Bakı, 2024. – 46s.

[10] Dadaş-zadə, K.H. Aşıqşünaslığın tarixi və nəzəriyyəsi (Ali musiqi məktəbləri üçün dərslik) / K.H.Dadaşzadə. – Bakı:ADMİU-nun mətbəəsi– 2019. – 153 s.

[11] Axundova, K.H. Aşıq Şamil Piriyev. Metodiki material / K.H.Axundova. – Bakı: Azərnəşr, – 1988. –18 s.

[12] Köçərli, İ.T. Azərbaycan xalq musiqi yaradıcılığında "Şikəstə" / İ.T.Köçərli. – Bakı: Tural, – 2003. – 124 s.

[13] Köçərli, İ.T. Aşıq sənəti: sinkretizm və sintez problemlərinin tədqiqi: / sənətşünaslıq üzrə elmlər doktoru dis.avtoreferatı. / - Bakı, 2012. – 50s.

[14] Atakişiyeva, K.Ə. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı / K.Ə.Atakişiyeva. – Bakı: Elm və təhsil, – 2020. – 136 s.

dissertasiyanın nəzəri hissəsində bəzi havaları məqam baxımdan qruplaşdıraraq təhlil etmişdir[15]. Professor A.Nəcəfzadə və musiqişünas S.Nəcəfzadə həmmüəllif olduqları "Xızı aşıqları"[16] adlı monoqrafiyada bölgənin 30 aşığının həyat və sənət fəaliyyətini araşdırmış, musiqişünas H.Məmmədli[17], [18] və İ.İsrafilova[19] Şirvan peşrovlarından bir neçəsini nota salaraq məqam, melodik təhlilini vermişlər.

İ.İmamverdiyev Qərb bölgəsinin simasında Azərbaycan aşıq ifaçılığının səciyyəvi xüsusiyyətlərini, bu bölgəyə məxsus havaların məqam, metroritm, variantlılıq məsələlərini, sazın pərdələri və köklənməsini, instrumental saz ifaçılıq xüsusiyyətlərini, deyişmələri, dastan ifaçılığını araşdırmışdır[20]. Sənətşünaslıq doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyasında isə Azərbaycan və İran (Güney Azərbaycan) türklərinin aşıqlarına məxsus ifaçılıq xüsusiyyətlərinin qarşılıqlı əlaqələrini tədqiq etmişdir[21]. Bundan başqa müxtəlif mühitlərə məxsus havaları nota salmışdır ki, onlar arasında Şirvan aşıqlarına məxsus nümunələr də vardır [22].

Regional araşdırmalar sırasında musiqişünas alim Azad Ozan Kərimlinin Tovuz[23], H.Kərimovun Borçalı[24], M.Əliyevin Gədəbəy[25]

---

[15] Əliyeva, X.A. Şirvan aşıq havalarının məqam və melodiya xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2014, – 160 s.

[16] Nəcəfzadə, A.İ. Xızı aşıqları / A.İ.Nəcəfzadə, S.C.Nəcəfzadə.– Bakı: Xəzər universitəsi, – 2020. 208 s.

[17] Məmmədli, H.H. "Çoban yaylağı" peşrovu // – Bakı: Konservatoriya, – 2017. №2, s. 47-51.

[18] Məmmədli, H.H. "Telli sazım" peşrovu // – Bakı: Konservatoriya, – 2018. №2, – s. 47-50.

[19] İsrafilova, İ.Q. "Əlicadı" (Əli icadı) peşrov // – Bakı: Elmi əsərlər, – 2021. №2, s148-154.

[20] İmamverdiyev, İ.C. Azərbaycan aşıq sənətinin səciyyəvi xüsusiyyətləri (Qərb bölgəsi üzrə) / İ.C.İmamverdiyev. – Bakı: Şirvannəşr, – 2004, – 137 s.

[21] İmamverdiyev, M.C. Azərbaycan və İran türklərinin aşıq-ifaçılıq sənətinin qarşılıqlı əlaqələri. / sənətşünaslıq üzrə elmlər doktoru dis. avtoreferatı / - Bakı, 2008. – 56 s.

[22] İmamverdiyev, İ.C. Saz havaları antalogiyası / İ.C.İmamverdiyev. – Bakı: Elm və təhsil, – 2013. – 1112 s.

[23] Керимов, А.К. (Азад Озан Керимли). Таузская школа ашыгов Азербайджана. Dисс.насоис.уч.степ.кан.искусствоведения / – Баку: 1995, -190 с.

mühiti ilə bağlı ərsəyə gətirdikləri tədqiqatlar da bu istiqamətdə görülmüş əhəmiyyətli işlərdəndir. A.Kərimli Tovuz aşıq məktəbinin saz havalarının öyrənilməsinə həsr olunmuş dissertasiya işindən sonra Cıldır[26] və Göyçə[27],[28],[29] aşıq məktəblərini də tədqiqata cəlb etmişdir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru M.Əliyev Gədəbəy aşıq məktəbi, bölgənin ənənəvi xüsusiyyətləri, havacat və digər özəlliklərinin tədqiqinə həsr edilən dissertasiya işindən başqa S.Kərimi və A.Quliyev ilə birlikdə "Saz məktəbi"[30] adlı dərsliyin həmmüəllifidir ki, kitab aşıq sənətinin tədrisinə dair ilk dərsilklərdəndir. H.Kərimov Azərbaycan aşıq sənətinin inkişafında Borçalı məktəbinin rolunu müəyyən etmiş, havacat, ənənəvi ifaçılıq xüsusiyyətləri məsələlərinə aydınlıq gətirmişdir.

Professor E.Babayev (1948-2003) muğam dəstgahlarının ritm-intonasiya məsələlərindən bəhs edərkən, aşıq havalarını da bu zəmində təhlil etmişdir[31]. Aşıq havalarının ritm xüsusiyyətləri professor F.Xalıqzadənin də tədqiqatlarında yer almış, musiqişünas melosətirlərin ritmik formullarını tədqiq etmişdir[32],[33],[34],[35],[36],[37],[38].

---

[24] Kərimov, H.V. Borçalı aşıqlarının musiqi yaradıcılığı / H.V.Kərimov. – Bakı: ADMİU, – 2019.– 280 s.

[25] Əliyev, M.F. Gədəbəy aşıq mühiti və onun ifaçılıq ənənələri. / Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya / Bakı:2018, 156 s.

[26] Kərimli A.K. Çıldır aşıq məktəbi haqqında bilgilər // – Bakı: Azərbaycan musiqisi:tarix və müasir dövr toplusu, – 1994, – s. 128-131.

[27] Kərimli A.O. Göyçə aşıq məktəbi // – Bakı: Musiqi dünyası, – 2000. № 1 (2). – s. 66-72.

[28] Kərimli, A. O. Göyçə Aşıq məktəbi (ardı) // – Bakı: Musiqi dünyası, – 2000 . № 2(3) – s. 81-85.

[29] Kərimli, A. O. Göyçə Aşıq məktəbi // – Bakı: Musiqi dünyası, – 2001 . № 3-4 (9) – s. 132-141.

[30] Kərimi, S.Ə, Saz məktəbi. Dərslik. / S.Ə.Kərimi, A.N.Quliyev, M.F.Əliyev. – Bakı: Qarabağ, – 2007. – 229 s.

[31] Babayev, E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Elm, – 1998. – 146 s.

[32] Xalıqzadə, F.X. Aşıq musiqisində musiqili-poetik formullar // – Bakı: Elm və həyat, 198. – s 26-27

[33] Xalıqzadə, F.X. Aşıq ritminin bəzi xüsusiyyətləri haqqında // Bakı: Qobustan – 1983. №1, – s 70.

Etnoorqonoloq S.Abdullayeva müxtəlif mühitlərə məxsus saz aləti, o cümlədən Şirvan sazının ölçüləri, köklənmə qaydası, pərdələrin adlarını vermişdir[39]. N.Rəhimbəyli "Aşıq Qərib" dastanını poetik mətnlə yanaşı, məqam-intonasiya, melodiya, ritm, forma xüsusiyyətlərinə görə nəzəri təhlil etmişdir[40].

Azərbaycan aşıq sənətinin yarandığı dövrdən müasir günümüzə qədər keçdiyi geniş inkişaflı yol hələ XX əsrin əvvəllərindən filologiya sahəsi üzrə tədqiq edilməyə başlanmış, aşıqların fəaliyyəti, dastan və şeir yaradıcılığı ətraflı şəkildə araşdırılaraq əhəmiyyətli nəticələr əldə olunmuşdur. Q.Namazov[41], H.Araslı[42], Ə.Cəfərzadə[43], M.Qasımlı[44], S.Qəniyev[45] və digərlərinin bu istiqamətdə gördüyü işlər çox təqdirəlayliqdir. Bu mənada S.Qəniyevin yaradıcılığı xüsusi olaraq qeyd edilməlidir. Ədəbi folklorşünaslıqda aşıq sənətini ilk dəfə regional aspektdə araşdıran alimin Şirvan mühiti ilə bağlı çoxsaylı kitabları işıq üzü görmüşdür. Onun Şirvanın ustad aşıqlarının yaradıcılığına dair monoqrafiyaları ilə yanaşı, mühitin

---

[34] Xalıqzadə, F.X. Azərbaycan xalq musiqisində "bəhrsiz" ritm anlayışına dair // – Bakı: Azərbaycan milli musiqisinin tədqiqi problemləri, I buraxılış, – 1992. – s. 54-59.

[35] Xalıqzadə, F.X. Layla və oxşamaların ritmikasına dair // – Bakı: Azərbaycan milli musiqisinin tədqiqi problemləri, II buraxılış, – 1996. – s. 8-13.

[36] Xalıqzadə, F.X. Üzeyir Hacıbəyli və folklor / F.X.Xalıqzadə. – Bakı: Şərq-Qərb, – 2014, – 276 s.

[37] Халыгзаде, Ф.Х. Изучение хромых размеров аксак и перспективы музыкальной тюркологии // İnternational Society for Music Education. 33rd World Conference, – Баку: Елм, – 15-20 ияль, – 2018, – с. 482-488.

[38] Халыгзаде, Ф.Х. Ритмика Азербайджанской народной музыки: автореф. диссерт. на соиск. науной степени кандидата искусств. / – Москва, 1985. – 22 с.

[39] Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, –2002 . – 454 s.

[40] Rəhimbəyli, N.R. "Aşıq Qərib" dastanı əsasında Azərbaycan dastanlarının melo-poetikası / N.R.Rəhimbəyli. – Bakı: Şərq-Qərb, – 2009. – 535 s.

[41] Namazov, Q.M. Azərbaycan aşıq sənəti / Q.M.Namazov. – Bakı: Yazıçı, – 1984, – 189 s.

[42] Araslı, H.M. Aşıq yaradıcılığı / H.M.Araslı. – Bakı: Birləşmiş Nəşriyyat, – 1960. – 136 s.

[43] Cəfərzadə, Ə.M. Şirvanın 350 şairi / Ə.M.Cəfərzadə, S.H.Qəniyev. – Bakı: Ünsiyyət, – 1999. 224 s.

[44] Qasımlı M.P. Ozan aşıq sənəti / M.P.Qasımlı. – Bakı: Uğur, – 2011, II redaksiya. – 304 s.

[45] Qəniyev, S.H. Şirvan aşıqları / S.H.Qəniyev. – Bakı: Nurlan– 2007. – 736s.

tarixinə, mədəni irsinə həsr olunmuş kitabları böyük əhəmiyyətə malikdir. Aşıq sənətini mühitlər kontekstində öyrənən filoloq alimlər sırasında M.Qasımlıdan başqa A.Nəbiyevin[46], H.İsmayılovun[47] və digərlərinin də adlarını çəkmək olar. Sadalanan bütün əsərlər aşıq sənətinin öyrənilməsinə mühüm töhfə olub, dissertasiya işinin ərsəyə gəlməsində elmi mənbə rolunu oynamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Şirvan aşıq mühiti, predmetini isə bu mühitə məxsus havalar, onların janr və üslub, o cümlədən məqam, melodiya, ritmik xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Şirvan aşıq havalarının janr və üslub xüsusiyyətlərini tədqiq etməkdir. Şirvan aşıqlarının musiqi yaradıcılığı havacat, üslub, janr, ifaçılıq, inkişaf dinamikası və s. cəhətdən Azərbaycanın digər mühitləri arasında özünəməxsus mövqeyə malikdir və orijinal keyfiyyətlərilə seçilir ki, dissertasiya işində onların öyrənilməsi əsas məqsəd kimi irəli sürülmüşdür. Mühitin havacatını janrlara ayırmaq üçün ustad sənətkarların və gənc ifaçıların anlayışlarına əsasən silsilə havalar mövcud idi. Lakin silsilələrin daxili tərkibi tam müəyyənləşdirilməmişdi. Problemi əsaslı şəkildə işləmək üçün regionun aşıq musiqi materiallarını imkan daxilində öyrənmək, bir sıra Şirvan aşıqları ilə görüşlərdə janr nümunələri toplanılaraq, nəzəri təhlil vasitəsilə dəqiqləşdirmək, variant nümunələri müstəqil havalardan fərqləndirmək məsələsi meydana çıxmışdır.

Beləliklə, əsas məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

- Şirvan aşıq mühitinin təşəkkülü, inkişaf prosesi və yayılma arealını izləyərək, ifaçılıq ənənələrini müəyyən etmək;
- Mühitin musiqi repertuarı – ənənəvi və sonradan yaranan aşıq havalarının variantlılıq məsələlərinə aydınlıq gətirərək sistemli şəkildə araşdırmaq;

[46] Nəbiyev, A.M. Azərbaycan aşıq məktəbləri / A.M.Nəbiyev. – Bakı: Nurlan, – 2004. – 310 s.

[47] İsmayılov, H.Ə. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri / H.Ə.İsmayılov. – Bakı: Elm, – 2006, – 310 s.

- Şirvan aşıq havalarının poetik mətn məsələlərini – dastanlarda yerini öyrənmək;

- Havaları silsilələr üzrə qruplaşdıraraq, üslubuna görə janr xüsusiyyətlərini təyin etmək;

**Tədqiqatın metodları.** Şirvan aşıq mühitinin tarixi təşəkkül prosesinin öyrənilməsində tarixi-etnomusiqişünaslıq metodundan, tarixi qaynaqlarının öyrənilməsində tarixi-genetik metoddan istifadə edilmişdir. Bu mühiti təmsil edən görkəmli nümayəndələrin aşıq sənətinin inkişafında rolu, qurultay və konsertlərdə iştirakı və digər mədəni hadisələrə münasibəti sosiokulturoloji metodla, mühitin ənənəvi xüsusiyyətləri və havaların janr xüsusiyyətləri tiploji metod vasitəsilə müəyyən edilmişdir. Həmçinin havalar struktur-tipoloji metodla silsilələr üzrə qruplaşdırılmış, bəhrli və qarışıq bəhrli janrlar üzrə klassifikasiya apararaq, onların külliyyatı struktur metodu vasitəsilə müəyyən edilmişdir. Şirvan aşıq mühitinə məxsus müxəmməs, gözəlləmə, şikəstə, gəraylı kimi silsilə havaların digər mühitlərə məxsus nümunələrlə əlaqəli təhlili zamanı müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Həmçinin dissertasiyanın nəzəri bölməsində Ü.Hacıbəyli, Ə.Eldarova, T.Məmmədov, F.Xalıqzadə, A.Kərimov, İ.İmamverdiyev, K.Dadaş-zadə, İ.Köçərli, K.Atakişiyeva, X.Əliyeva, M.Əliyev, H.Kərimov və digərlərinin aşıq sənətilə bağlı tədqiqatlarında yer alan elmi müddəalara əsaslanmışıq.

Dissertasiya işinin hazırlanmasında aşıq sənəti, xüsusilə Şirvan aşıq mühitilə bağlı elmi əsərlərə istinad edilmiş, burada əksini tapan tarixi və nəzəri prinsiplərdən istifadə olunmuşdur. Dissertasiyanın nəzəri hissəsində Şirvan mühitinin ustad aşıqları tərəfindən ifa edilən havaların səs və lent yazıları, eləcə də fərdi ekspedisiya zamanı toplanmış nümunələrin tərəfimizdən nota salınmış variantları – Gözəlləmələr, Şəşəngilər, Müxəmməslər, Peşrovlar, Şikəstələr, Gəraylılar, Ordubadılar, Qafiyələr və b. havalar tədqiqata cəlb edilmişdir. Həmçinin istinad etdiyimiz bəzi nümunələri K.Axundova (Dadaş-zadə) Şirvanın ustad aşıqlarından olan Aşıq Şamil Piriyevin ifasından nota almışdır. “Şirvan Şikəstəsi”nin not yazısı isə H.Adıgözəlzadəyə məxsusdur. Eləcə də bu bölmədə müqayisə üçün T.Məmmədov və İ.İmamverdiyevin not yazılarına müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində qarşıya qoyulan məqsədin həyata keçirilməsi üçün aparılan araşdırma və təhlillər, eləcə də əldə edilən elmi nəticələr bir sıra əsas müddəaların ortaya qoyulmasını zəruri edir və işin əsas istiqamətini təşkil edir:

- Şirvan aşıq mühiti Azərbaycan aşıq sənətinin əhəmiyyətli bir qolunu təşkil edərək, öz reperuarı (80-ə yaxın), çoxcəhətli ifaçılıq ənənələri və digər özünəməxsus regional cəhətlərini müəyyən etmişdir.
- Bu ərazidə aşıq və muğam sənətinin paralel inkişafı onların qarşılıqlı əlaqəsinə səbəb olmuşdur Şirvan mühitində aşıq sazının pərdələrinin adlandırılması bilavasitə muğamlarla bağlı olmuşdur.
- Şirvan mühitinin aşıq havacatı xeyli sayda ənənəvi və yeni yaranmış nümunələrlə səciyyələnir ki, bu da əsaslı janr təsnifatının aparılmasını zəruri edir.
- Şirvan aşıqlarının dastançılıq ənənələri digər mühitlərdən fərqlənir və özünəməxsus ifa xüsusiyyətlərinə malikdir.
- Şirvan aşıq havalarının üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün onların melodiya, məqam, ritm və poetik məzmunu, eləcə də mühitin lokal ifaçılıq ənənələri əsas rol oynayır.

**Tədqiqatın elmi yeniliyi.** Şirvan aşıq mühitinin bəzi havaları müəyyən tədqiqatlarda təhlilə cəlb olunsalar da, ümumilikdə onların külliyyatı janr təsnifatı və bədii üslub xüsusiyyətləri ilk dəfə təqdim olunan dissertasiyada araşdırılımışdır ki, bu da təqdim edilən işin əsas elmi yeniliyi hesab olunur. Bizə qədər aparılmış tədqiqat işlərində Şirvan aşıq havalarının janr məsələləri ön plana çəkilərək, onların üslub xüsusiyyətləri elmi məqsədli şəkildə araşdırılmamışdır. Bu baxımdan təqdim olunan dissertasiya işi mövzuya həsr olunmuş ilk elmi-nəzəri əsər sayıla bilər.

O cümlədən tədqiqat işində ilk dəfə olaraq:

- Şirvan aşıq mühitinin ifaçılıq ənənələri işıqlandırılmış, dəstə tərkibində hər bir ifaçının rolu müəyyən edilmişdir;
- Azərbaycan etnomusiqişünaslığında ilk dəfə Şirvan aşıqlarının musiqi yaradıcılığını bütöv şəkildə əhatə etməyə səy göstərilmişdir;

- Dissertasiyada Şirvan aşıq havaları xüsusiyyətlərinə görə ənənəvi havalar toplusu və aşıq mahnıları kimi qruplaşdırılmışdır;

- İlk dəfə Peşrov, Gözəlləmə, Şəşəngi, Müxəmməs, Şikəstə, Ordubadı, Gəraylı və digər silsilə havalar toplanılmış və sayı müəyyən edilərək, sistemləşdirilmişdir;

- İlk dəfə Şirvan mühitinin aşıq mahnıları, onların yaranma səbəbləri, repertuarda yeri müəyyən edilmiş, bununla yanaşı, ənənəvi aşıq havaları və xanəndə repertuarına sirayət edən aşıq mahnıları araşdırılmışdır;

- İlk dəfə Şirvan aşıq havaları metroritmik xüsusiyyətlərinə görə klassifikasiya edilmişdir;

- İlk dəfə bütövlükdə Şirvan aşıq havalarının məqam, melodiya və digər üslub xüsusiyyətləri nəzəri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarından etnomusiqişünaslar, aşıq musiqi tədqiqatçıları elmi mənbə kimi istifadə edə bilərlər. Dissertasiya işində təqdim edilən məlumatdan orta ixtisas musiqi məktəbləri, musiqi təmayüllü orta ixtisas məktəbləri və kolleclərdə, Azərbaycan Milli Konservatoriyası, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, eləcə də musiqi təhsili verən digər ali təhsil müəssisələrində xalq musiqisi, aşıq yaradıcılığı ilə bağlı fənlərin ("Azərbaycan xalq musiqisinin yaradıcılığı", "Azərbayan xalq musiqisinin nota yazılması", "Türk xalqlarının musiqi", "Regional aşıq məktəblərinin musiqisi" və b.) tədrisində, o cümlədən əldə edilən nəticələr Şirvan aşıq mühitinin tədqiqi ilə məşğul olan mütəxəssislər üçün elmi mənbə rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və müddəaları Azərbaycan və Türkiyə kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunan 8 məqalə və 9 konfrans məruzəsində öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir sıra yerli və beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya Giriş, 3 fəsil (6 paraqraf), Nəticə, İstifadə edilmiş ədəbiyyat siyahısı, Notoqrafiya, Elektron resurslar və Əlavələr bölməsindən ibarətdir. Giriş 10 səhifə 17092 işarədən, I fəsil 46 səhifə 70173 işarədən, II fəsil 38 səhifə 70607 işarədən, III fəsil 45 səhifə 58038 işarədən, Nəticə 5 səhifə 8507 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi "İstifadə edilmiş ədəbiyyat siyahısı", notoqrafiya, elektron resurslar və "Əlavələr" istisna olunmaqla 146 səhifə və 224417 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəaları, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "Şirvanın tarixi və ictimai-mədəni mühitində aşıq sənətinin yeri və əhəmiyyəti"** adlanır və özündə üç paraqrafı birləşdirir. Birinci paraqraf **1.1. "Şirvan aşıq sənətinin tarixi təşəkkülü və əsas inkişaf mərhələləri"** adlanır. Burada Şirvan mühitinin mərkəzi olan Şamaxının tarixi, ictimai, mədəni və sosial mənzərəsi, incəsənət növlərinin təşəkkülü haqqında məlumat yer almışdır. Paraqrafda Şirvan mühiti ilə bağlı elmi mənbələr əsasında tarixi məlumat incələnmiş, onun kökləri, sufi, təkkə təriqət məsələlərinə nəzər salınmış, burada yaşayıb yaradan aşıqların ifa etdikləri saz aləti, musiqi repertuarı, dastanlar haqqında informasiya verilmişdir. Həmçinin Şirvan aşıq mühitinin ustad nümayəndələri, məktəb ənənələrinə nəzər yetirilmişdir.

**1.2. "Şirvan aşıqlarının ifaçılıq ənənələri"** adlı ikinci paraqrafda bilavasitə mühitin ifaçılıq ənənələri ilə bağlı məsələlərin araşdırılması ön plana çəkilmişdir.

Digər bölgələrdən fərqli olaraq, Şirvan aşıq mühitində havalar ansamblın müşayiətilə ifa olunur. Onlar dəstəyə aşıq başda olmaqla, iki balaban, zərb aləti (qoşa nağara) və aşıq xanəndəsi daxil etmişlər.

Şirvan aşıqları "sinə səsi" ilə deyil, "boğaz səsi" ilə ifa edərək, digər mühitlərin nümayəndələrindən fərqlənirlər. Şirvan aşıqlarına xas cəhətlərdən biri də havanın əvvəlində, bəzən isə ikinci və üçüncü bəndlər arasında məqama uyğun muğam ifa etmələridir. Muğam əvvəldə səslənərsə  instrumental, bəndlər arasında ifa edilərsə vokal şəkildə olur. Şirvan aşıq dəstəsinin daxilində balaban aləti də çox mühüm funksiyaları yerinə yetirir. İki balabandan biri musiqi mövzusunu ifa edərkən, dəmkeş balabançı, bir növ, "köməkçi" funksiyasını daşıyır və havanın məqam və melodiyasına uyğun pərdələrdə dəm saxlayır. Balabançılar dəstədə aşıqdan sonra ikinci aparıcı ifaçı hesab olunur.

İkinci paraqrafda həmçinin Şirvanda ifa edilən balabanın quruluş xüsusiyyətləri, zərb alətlərinin mövqeyi, ansambl ifaçılığının özünəməxsus xüsusiyyətləri, "aşıq xanəndəsi" termini, dastançılıq ənənələri, aşıq-xanəndə repertuarının ortaq cəhətləri haqqında məlumat verilmişdir.

Üçüncü paraqraf **1.3. "Şirvan aşıqlarının musiqi repertuarının araşdırılması"** adlanır. Burada əsas məqsəd Şirvan aşıqlarının hava repertuarını tədqiq etmək və janr təsnifatını aparmaq, sayını, variantlarını, klassik və regional musiqi nümunələrini müəyyən etməkdən ibarətdir. Üçüncü paraqrafda ekspedisiya zamanı əldə olunan nümunələr, eləcə də yazılı mənbələr əsasında Şirvan mühitinə məxsus Peşrov, Qafiyə, Şəşəngi, Müxəmməs, Gözəlləmə, Ordubadı, Gəraylı, Şikəstə kimi silsilə havaların növ və variantları tutuşdurularaq, ümumi say müəyyənləşdirilmişdir. Bu zaman həm müxtəlif adlarla ifa edilib, lakin bir-birinin variant təkararı olan ("Çobanyaylağı peşrovu" = "Telli sazım peşrovu"), eləcə də bu vaxta qədər eyni olduğu hesab edilən havalara ("Əlicadı peşrovu" ilə "Hicazi peşrov") xüsusi diqqət yetirilərək variantlılıq məsələləri müəyyən qədər öz həllini tapmışdır. Siyahıda bizə qədər ümumi saya daxil edilməsi şübhə doğuran aşıq mahnıları da nəzərə alınmışdır.

Beləliklə, ənənəvi havaları yerli aşıqlar və müxtəlif yazılı mənbələr əsasında araşdıraraq, Peşrovların 11, Şəşəngilərin 7, Müxəmməslərin 6, Ordubadıların 2, Gözəlləmələrin 3, Qafiyələrin 2, Kərəmilərin 2, Gəraylıların 4, Şikəstələrin 8, Koroğlu havalarının 2 olduğunu müəyyən etmişik. Təbii ki, biz bura unudulmuş,

repertuardan uzaqlaşmış, eləcə də bir-birinin variant təkrarı olan havaları daxil etməmişik. Əgər nəzərə alsaq ki, hələ bizə məlum olanlardan – Aşıq Pənahın 18 (“Pənah gözəlləməsi” və b.), Aşıq Xanmusanın 20 (“Xəzərim”, “Şən bahar”, “Kolxozçu qızlar” və b.), Aşıq Bilalın (“Bilal peşrovu” və “Bilal şəşəngisi” və b.) onlarla bəstəsi mövcuddur, onda Şirvan aşıqlarının ümumi musiqi repertuarının 80-ə yaxın, bəlkə də çox olması fikrini irəli sürə bilərik.

Dissertasiya işinin **II fəsli** “**Şirvan aşıqlarının janr xüsusiyyətləri**” adlanır. Bu fəsil özündə üç paraqrafı birləşdirir. **2.1. “Şirvan aşıq havalarının janr təsnifatı məsələləri”** adlı birinci paraqrafda əsas məqsəd Şirvan mühitinə məxsus aşıq havalarının özündə ehtiva etdiyi üslub (melodik, məqam, ritm) xüsusiyyətlərinə görə janr məsələlərinə aydınlıq gətirmək və təsnifatını aparmaqdan ibarətdir. Bu xüsusiyyətləri əsas tutaraq, musiqişünasların – Ü.Hacıbəyli və M.İsmayılovun, Ə.Eldarovanın, İ.Köçərlinin, T.Məmmədovun apardıqları müxtəlif təsnifat əsasında havaları bir neçə variantda klassifikasiya etməyə cəhd olunmuşdur.

Beləliklə, həmin təsnifat variantlarının Şirvan aşıq havaları üzərində tətbiqi zamanı repertuarın tam əhatə olunmadığını nəzərə alaraq, onların silsilələr üzrə klassifikasiyasını daha məqsədəuyğun hesab edirik. Qeyd edək ki, Şirvan aşıq mühitində silsiləvilik tam başqa mahiyyət daşıyıb, ilk növbədə, havalar öz müstəqilliyini saxlayır. Silsiləyə daxil olan digər nümunələrdən heç bir aslılıq olmadan, müxtəlif məclis və konsertlərdə ifa olunur. Şirvan aşıq havalarının üslub xüsusiyyətlərini əsas tutaraq, onları bu şəkildə silsilələr – tiplər üzrə janr qruplarına ayıra bilərik:

1.Peşrovlar; 2.Qafiyələr; 3.Şəşəngilər; 4.Müxəmməslər; 5.Gözəlləmələr; 6.Gəraylılar; 7.Şikəstələr; 8.Kərəmilər; 9.Ordubadılar; 10.Koroğlu havaları; 11.Aşıq mahnıları.

İkinci fəslin ikinci paraqrafı **2.2. “Şirvan aşıq havalarının janr spesifikası”** adlanır. Bu paraqrafda Şirvan mühitinə məxsus havaların janr spesifikasını əmələ gətirən əsas cəhətlər işıqlandırılır. Repertuarda çoxluq təşkil edən silsilə havalar aşıqlar tərəfindən də bu şəkildə tanınmaqdadır. Maraqlıdır ki, onların ritm, məqam, melodiya və digər xüsusiyyətlərindən başqa, özünə xas janrı ifadə edə biləcək cəhətləri də vardır. Məhz bunun sayəsində yeni yaranmış nümunənin hansı janr

qrupuna daxil edilməsi müəyyənləşdirilir. Xüsusilə də, havaların lokal xüsusiyyət daşımaları onların janr spesifikası ilə bağlıdır.

Şirvan aşıq mühitində geniş yayılmış Peşrov janrına türk, ərəb və azərbaycan xalq musiqisində rast gəlmək olar. Peşrovlar bütün hallarda giriş xüsusiyyəti daşıyıb, mənası “giriş”, “başlanğıc”, “öndə, qabaqda, irəlidə gedən”, deməkdir. Azərbaycanda Peşrovlar yalnız Şirvan aşıq repertuarına məxsus havalardır. Hətta bu mühitdə Peşrov havalarını ifa edə bilməyəni aşıq hesab etmirlər. Şirvanda Peşrovlar aşıq məclisinin və ya toy mərasiminin açılışını elan etmək məqsədilə ifa olunur.

Şirvan aşıq mühitində ifa olunan havalar arasında Qafiyələrin xüsusi yeri vardır. Musiqili poetik janr – Qafiyə aşıq ədəbiyyatında qoşma şeir şəklinin bir növü olub, ona xas cəhətləri özündə ehtiva edir. Şirvan aşıq mühitində oxunan Qafiyə havalarının – “Güllü qafiyə” və “Qara qafiyə” – hər ikisinin poetik mətn əsasını qoşma təşkil edir. Ustad aşıqlardan aldığımız məlumata görə, “Qara qafiyə” Peşrovlar silsiləsinə daxil olan havalardandır. Bəzən adına “Qafiyə peşrovu” da deyilir. “Güllü qafiyə” ədəbiyyatda “dedim-dedi” və ya “dedim-söylədi” kimi sual-cavab tərzində yazılan 11 hecalı misralardan ibarət mətndir. Maraqlıdır ki, Qərb aşıq mühitində ifa olunan “Güllü qafiyə” havasının poetik mətnini məhz bu üslublu qoşmalar təşkil edir. Şirvan aşıq mühitində isə fərqli olaraq, “gül”lər özünü melodiya və mətndə göstərir.

Mühiti xarakterizə edən silsilə havalardan Şəşəngilər də Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır. Şəşənginin heç bir növünə nə ad, nə melodiya baxımdan digər mühitlərdə rast gəlinməyib, sırf bölgə xüsusiyyəti daşıyırlar.

Şirvan aşıq mühitində repertuarın müəyyən bir hissəsini lirik havalar, başqa sözlə desək, musiqili-poetik janrlar tutur ki, onların da özünü ifadə etməsində poetik mətn və melodiyanın xarakterik cəhətləri mühüm rol oynayır. Şeir şəklinin eyni adlı havaya verilməsi təsadüfi olmayıb, onun spesifikasında özünü birbaşa göstərir. Poetik mətn janr xüsusiyyətlərini havanın melodiyasına daşıyaraq, onun ifadə vasitələrini müəyyən edir. Bunu Müxəmməs, Qafiyə, Gəraylı, Gözəlləmə kimi silsilə havaların melodiya və mətnində aydın şəkildə görmək mümkündür.

Müxəmməs havaları həm Qərb, həm də Şirvan aşıq mühitinin repertuarına daxildir. Digər mühitlərdə ifa olunan bu silsilə havaların poetik mətnini müxəmməs şeir şəkli təşkil etdiyi halda, Şirvanda gəraylı şeir şəklinə oxunur. Müxəmməs havalarında melomisralar pauzalı sinkopa ilə başlanır ki, bu da onların janr spesifikası hesab oluna bilər.

Gözəlləmələr aşıq yaradıcılığında geniş yayılmış havalardandır və Şirvan bölgəsində çox zaman gəraylıya oxunur. Ordubadıların isə poetik mətnini həm gəraylı, həm də qoşma təşkil edir. Azərbaycan aşıq yaradıcılığında inkişaf etmiş musiqili-poetik janrlardan biri - Gəraylılar Şirvan aşıqlarının da repertuarda yer almışdır. Şirvan aşıq mühitində Kərəmi havalarından "Döymə Kərəmi" və "Quba Kərəmi" ifa olunur ki, bunlardan da birincisi sırf yerli xüsusiyyətləri özündə daşıyan ənənəvi havalardandır. "Şikəstə"lər milli musiqimizdə əsas yerlərdən birini tutub, həm muğam, həm də aşıq sənətində geniş yayılmışdır. İ.Köçərlinin də qeyd etdiyi kimi: *"...şikəstələrin yeni bir qolu Şirvan aşıq məktəbi ənənələri ilə bağlı olaraq yaranmışdır"*[48]. Burada "Şirvan şikəstəsi", "Kərəm şikəstəsi", "Sarıtorpaq şikəstə", "Yekmə şikəstə" (yaxud "Yekbə" şikəstə), "Bayatı şikəstə", "Zarıncı şikəstə", "Vəlicanı şikəstə", "Qobustanı şikəstə" və b. ifa edilir.

Beləliklə, havanın daşıdığı ad onun janr ifadə xüsusiyyətlərinin formalaşmasında mühüm rolu olan poetik mətn və melodik üslubu ilə sıx əlaqədardır. Silsilələri səciyyələndirən spesifik cəhətlər də özünü havanın müxtəlif üslub xüsusiyyətlərində bəlli edib, həmin qrupa daxil olmasına zəmin yaradır. Digər tərəfdən havanın ifa olunduğu köklə əlaqədar adının qarşısında "baş", "ayaq", "orta" və "zil", "ağır" və ya "yeyin" ifadələrinin işlədilməsi də onun janr spesifikasını müəyyən edir. Şirvan aşıq havalarında müşahidə edilən oynaqlıq, əlvan, "güllü" xallar da bu mühitdə melodiyanın xüsusiyyətini əks etdirən amillərdir. Beləliklə, aşıqlar bu kriteriyaları nəzərə alaraq yaratdıqları havaya ad vermişlər.

İkinci fəslin sonuncu paraqrafı **2.3. "Şirvan aşıq havalarının şeir, dastan və məclislərlə əlaqəsi"** adlanır. Bu paraqrafda Şirvan mühitində dastançılıq ənənələri işıqlandırılır. Mühitdə dastan

[48] Köçərli, İ.T. Azərbaycan xalq musiqi yaradıcılığında "Şikəstə": / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. /- Bakı, 1994. – 173s.

yaradıcılığına böyük maraq və məhəbbət vardır. Ustad aşıqların sözlərinə görə Şirvan mühitində təxminən 32 dastan söylənilmişdir. Bir hissəsi Qərb aşıq mühitilə eynilik təşkil etməklə yanaşı, yalnız bu mühit nümayəndələri tərəfindən yaradılmış dastanlar da mövcuddur. Məsələn, "Koroğlunun Şirvan səfəri", "Küçən Rza", "Şirvanlı Qəhrəman şah", "Adıgözəl və Aslan şah", "Yasəf  Xəzri və Səhər Təbrizi", "Canbaxış", "Arif və Qərənfil", "Qaynana", "Fərmail və Xuraman", "Qiyafət", "Zəncanlı Qurban", "Kərəmin Beşdaş səfəri", "Aşıq Ağaməmməd və Məryəm", "Mustafa və Sənəm xanım", "Seydi və Pəri xanım", "Yetim Aydın", o cümlədən Aşıq Əsgərin (Bala Ələsgər adıyla tanınmışdır) ifa etdiyi "Cəlalı Məhəmməd", "Bikəs", "Şahzadə Bəhram", "Nəcəfin nağılı", "Seyfəl mülk", "Cavan Gülşən", "Ordubadlı Kərəm" və b. Eləcə də Şirvanın görkəmli aşıqlarının başına gələn hadisələr sonradan dastan kimi ifa olunmuşdur ("Aşıq Mirzə Bilal", "Aşıq Bilal və Badam xanım", "Aşıq Şakirin Tovuz səfəri" , "Aşıq Əhməd və falçı").

Şirvan aşıq mühitində bölgədən asılı olaraq dastana həmçinin nağıl deyirlər. Bəzi ərazilərdə, xüsusilə Qobustan və ətraf ərazilərdə "günorta nağılı" kimi  adlandırılır. Hələ qədimdən dastanlar ən azı 100-150 nəfər kişidən ibarət dinləyicinin olduğu xüsusi təşkil olunmuş məclislərdə söylənilmişdir (qadınların isə belə məclislərdə iştirakı mümükünsüz olmuşdur). Mühitin ifaçılıq ənənələrinə görə məclis "Peşrov" havalarından biri ilə açılır. Giriş rolunu oynayan "Peşrov" havasından sonra ustadnamə ifa edilir. Ənənəyə görə dastanın əvvəlində deyilən ustadnamənin sayı üç olmalıdır. Üçüncü isə "Şikəstə" havası üstündə ifa olunur. Şikəstə havalarının dastanın daxilində isə özünəməxsus rolu vardır.

Aşığın ən ümdə vəzifələrindən biri dastan daxilində musiqinin seçimi ilə bağlı olmuşdur. Belə ki, ifa olunan musiqi mütləq baş verən hadisələrin ruhunda seçilməli, süjet xəttinin inkişafına öz bədii, estetik təsirini göstərməli, eləcə də poetik mətnin vəzninə uyğun gəlməlidir. Şirvan aşıqları da müəyyən qayda-qanun çərçivəsində dastanları fərqli havalarla ifa etmişlər. İlk növbədə havanın oxunacaq şeir şəkli ilə forma baxımdan uyğunluğu ön plana çəkilmişdir.  Daha önəmlisi isə dastanın ideya-məzmunun açılmasında melodiyanın

bədii təsir gücü Şirvan mühitinin ustad aşıqları tərəfindən duyulmuş və ifaçılıqda tətbiq edilmişdir.

Dissertasiya işinin **III fəsli** “**Şirvan aşıq havalarının üslub xüsusiyyətləri**” adlanır. Bu fəsildə iki paraqraf yer almışdır. Birinci paraqraf **3.1. “Şirvan aşıq havalarının məqam və melodik xüsusiyyətləri”** adlanır. Bu bölmədə “Çobanyaylağı peşrovu”, “Obaköçdü peşrovu”, “Telli sazım peşrovu”, “Əlicadı peşrovu”, “İbrahimi peşrov”, “Şəmsi-Qəmər peşrovu”, “Ayaq Şəşəngi”, “Orta Şəşəngi”, “Ağır şəşəngi”, “Bilal şəşəngisi” (Oynaq Şəşəngi), “Zil Şəşəngi”, “Güllü şəşəngi”, “Orta müxəmməs”, “Oynaq müxəmməs”, “Ağır müxəmməs”, “Yeyin ordubadı”, “Zarıncı şikəstə”, “Şirvan şikəstəsi”, “Bayatı-Şikəstə”, “Qobustanı şikəstə” havalarının məqam xüsusiyyətləri təhlil edilmişdir.

Bizə qədər aparılmış məqam və melodik təhlillərə əsasən Şirvan havaları rast, şur, segah və şahnaz məqamlarına əsaslandığı iddia olunurdu. Havaları küll halında tədqiqata cəlb etməyimizin müsbət nəticəsi kimi, mühitdə bayatı-Şiraz məqamına əsaslanan nümunələrin də orataya çıxmasına nail olunmuşdur. Təhlil etdiyimiz nümunələrdən məlum oldu ki, məqamlar bəzən diatonik, bəzən də xromatik (xüsusilə də şur məqamına əsaslanan nümunələrdə) şəkildə özünü göstərir. Hər bir məqamın intonasiya xüsusiyyətləri, istinad pərdələri, zil şöbələri havanın melodik inkişafında aydın nəzərə çarpır. Digər tərəfdən məqamın əsaslandığı muğamın inkişaf dinamikası – istinad pərdələri üzərində dayanmaq və zil şöbəyə modulyasiya havanın melodik xəttində əks olunur ki, buna da Şirvan aşıq havalarının təhlili zamanı ilk dəfə tərəfimizdən diqqət yetirilmişdir.

Üçüncü fəslin sonuncu paraqrafı **3.2.** “**Şirvan aşıq havalarının metroritmik xüsusiyyətləri”** adlanır. Bu paraqrafda poetik mətnlə melodiyanın birgə vəhdətindən meydana gələrək, havaların tiplərini müəyyən edən ritmik formullarının təyinini ön plana çəkməyə çalışmışıq. Şirvan aşıq mühitində havaların bir çox ortaq üslub xüsusiyyətlərinə malik olub, silsilələr təşkil etməsi artıq məlumdur. Onların silsilə ətrafında birləşməsinə imkan yaradan üslub cəhətlərindən biri də ritmik xüsusiyyətlə bağlıdır. Belə ki, Gözəlləmə, Şəşəngi, Müxəmməs, Peşrov, Gəraylı, Şikəstə, Kərəmi

kimi silsilə havaları fərqləndirən əsas amillərədən biri ritmik formullardır. Bu havalardan bəhrlilər əsasən 6/8, bir neçəsi isə 4/4, qarışıq bəhrlilər isə 4/4, bəzən də 2/4 metrik ölçüsünə əsaslanır. Daha çox müşahidə edilən 6/8 metrik ölçüsündə ifa olunan nümunələr isə ritmik qəlibləri ilə bir-birindən fərqlənir ki, bu cəhət də onların silsilələr üzrə qruplaşdırılmasına imkan yaradır. Məsələn, bütün Peşrovlar eyni ritmik formula əsaslanıb, poetik mətnin heca ardıcıllaşmasından asılı olaraq əsas qəlibin müxtəlif variantlarını ortaya çıxarır ki, bunu digər silsilə havalarda da izləmək mümkündür. Birhecalı nida əlavələri və müəyyən ifadələrin birləşməsindən ibarət melobəndə əlavələr isə bu formulu bir qədər xırdalayaraq onu daha da zənginləşdirir. Əsas ritmik formul eyni zamanda dəstə tərkibinə daxil olan zərb alətinin də müşayiətində özünü göstərir. Məsələn, Şirvan aşıq havalarının müşayiətində daha çox rast gəlinən nümunə kimi aşağıdakı variantı göstərmək olar.

Nümunə 3.2.1




Bu ritmik müşayiətlə Şirvan aşıq mühitind ə Ordubadı, Gözəlləmə, Şəşəngi və Müxəmməs havaları ifa olunur.

Vokal hissələrdə silsilə üçün xarakterik olan standart ritmik formulu ifa edən qoşa-nağara ifaçısı, instrumental bölmədə həm alətin imkanlarını, həm də öz ifa bacarıqlarını nümayiş etdirərək əsas qəlibin variantlarını nümayiş etdirir. Bu zaman qoşa-nağaranın böyük çanağında uzun ölçülər, səsi daha aydın eşidilən kiçik çanaqda isə əsas ritmik formulun daha kiçik vahidlərə bölünmüş, punktir və başqa xırdalıqlar ifa olunur. Nəticədə havanın oynaqlığı, şuxluğu artır. Qarışıq bəhrli havalarda isə vokal partiya sərbəst improviasiyalı olduğundan melosətirlərin ritmik formulu bəhrli havalardakı kimi müəyyən qəlibə əsaslanmır. Lakin əsas formul qayda-qanundan kənara da çıxmır. Silsilə üçün səciyyəvi olan ritmik formul isə zərb alətlərinin müşayiətində özünü göstərir.

Dissertasiya işinin **Nəticə** bölümündə aparılan təhlil və əldə edilən nəticələr əks olunmuşdur. Burada Şirvan mühitinə məxsus repertuar tərkibi, dastançılıq ənənələri, havaların janr, üslub, məqam

və ritmik xüsusiyyətləri ilə bağlı aparılan təhlil zamanı əldə edilən nəticələri ümumiləşdirərək aşağıdakı punktlarla verə bilərik:

1. Şirvan aşıq mühiti Azərbaycan aşıq sənətinin əhəmiyyətli bir qolunu təşkil edir və digər mühitlərlə yanaşı, öz reperuarı, janr və üslub xüsusiyyətləri, ifaçılıq ənənələri və b. özünəməxsus cəhətlərini müəyyən etmişdir. Bu sənət əsrlər boyu təşəkkül tapıb, inkişaf etmişdir. Tədqiqatçıların qənaətinə görə Dostu Şirvaninin yaradıcılığından başlayaraq Aşıq İbrahim, Aşıq Bilal, Aşıq Pənah, Aşıq Şakir, Aşıq Xanmusa, Aşıq Vüqar və b. fəaliyyətilə təmsil olunan bu sənət müasir dövrdə Aşıq Ağamurad, Aşıq Əhliman, Aşıq Əli və digərlərinin yaradıcılığında davam etdirilir. Bu aşıqların bir çoxu öz ifa üslubu ilə seçilərək, məktəb yaratmışdır.

2. Şirvan aşıqları hər zaman yaradıcılığa meylli olmuş, onların repertuarı müxtəlif mövzulu, bədii təsir gücünə malik dastan və havacatla zənginləşmişdir. Burada dastan deyiminin özünəməxsus ənənəsi olmuşdur. Hələ XX əsrin 70-ci illərində öz fəal dövrünü yaşayan aşıq yaradıcılığı Şirvan bölgəsində bir neçə gün davam edən dastan gecələrində daha da inkişaf etmişdir. Mühitin dastan gecələri ilə bağlı özünəməxsus cəhətlərindən biri də məclisin Peşrov havaları ilə başlamasıdır. Dastanın əvvəlində deyilən üç ustadnamənin birincisi məhz Peşrov üstündə olmalı, ikinci musiqisiz söylənməli, üçüncü isə şikəstə üstündə oxunmalı idi. Şirvan mühitində qəhrəmani və ailə-məişət mövzulu ənənəvi dastanlarla yanaşı, yalnız bu mühitə məxsus dastanlar da söylənmişdir.

3. Dissertasiya işində Şirvan aşıq mühitini və onların havacatını nəzərdən keçirərək janr xüsusiyyətlərini izah edən üslub cəhətləri müəyyən edilmişdir. Aparılmış tədqiqat zamanı Şirvan aşıq havalarının janr və üslub xüsusiyyətlərinin öyrənilməsilə yanaşı, digər istiqamətlərdə də (onların tarixi təşəkkül prosesi, repertuar məsələləri, təsnifatı və b.) əhəmiyyətli nəticələr əldə edilmişdir. Şirvan aşıqlarının musiqi repertuarı da çox zəngindir. Sahə araşdırmalarında Aşıq Xanmusa Musayev, Aşıq Yanvar Bədəlov, Aşıq Vüqar Mahmudoğlu, Aşıq Əhliman Rəhimov, Aşıq Ağamurad İsrafilov, Aşıq Samirə və digərlərindən aldığımız məlumatı, əldə etdiyimiz 200-ə qədər nümunəni tutuşdurduqdan sonra, burada 80-dən çox havanın olduğu qənaətinə gəlmişik. Havalar və onların

variantları melodik baxımdan müqayisə edildikdən sonra bir-birinin variant təkrarı olub, poetik mətnə görə yeni hava kimi adlandırılan nümunələr ümumi siyahıya təbii ki, daxil olunmamış yekun nəticəyə gəlinmişdir. Bu baxımdan "Çobanyaylağı peşrovu" ilə "Telli sazım" peşrovunu qeyd etmək olar. Melodik hərəkət eyni olub, poetik mətndəki uzun və qısa hecaların düzülüşünə görə ritmik qruplaşma onları müəyyən qədər fərqləndirsə də, havaların oxşarlığı onları variant kimi qeyd etməyə imkan verir. Həmçinin "Çobanyaylağı" peşrovunda temp və digər xüsusiyyətlər onun əsas, digərinin isə sonradan yaranmış variant təkrarı olduğu fikrini irəli sürməyə əsas verir. Digər tərəfdən "Hicazi peşrov" və "Əlicadı peşovu"nun eyni hava olması fikrinə aydınlıq gətirərək, onların ad baxımdan oxşarlığı olsa da, eyni tipin xüsusiyyətlərini ehtiva edən bu iki nümunənin fərqli melodiyalarla ifa olunduğu müəyyənləşdirilmişdir. Bu şəkildə aparılmış araşdırmadan sonra havaların sayının 80-dən bir qədər çox olması müəyyən edilmişdir.

4. Şirvan mühitində havaların bizə qədər aparılmış janr təsnifatına uyğun metodlarla (metro-ritmik xüsusiyyətlərinə, sazın pərdələri, temp, məqam əsası və b. cəhətlərinə görə) klassifikasiyasına cəhd edildikdən sonra, bölgünün silsilələr üzrə aparılmasının daha düzgün olduğu nəticəsinə gəlinmişdir. Bu havaların üslub xüsusiyyətləri onların silsilələr üzrə qruplaşmasına imkan yaratmışdır.

- Peşrovlar
- Qafiyələr
- Şəşəngilər
- Gözəlləmələr
- Ordubadılar
- Gəraylılar
- Müxəmməslər
- Kərəmilər
- Şikəstələr
- Aşıq mahnıları

5. Şirvan aşıqlarının əsas xüsusiyyətlərindən biri də onların yaradıcı olmasıdır. Burada aşıqlıq sənəti öz köklərini saldığı vaxtdan bu günə qədər yeni nümunələr yaranmışdır. Janr xüsusiyyətlərinə görə

həmin havalar müəyyən silsiləyə aid edilmişdir. Məsələn, “İbrahimi peşrovu” Aşıq İbrahimin, “Bilal şəşəngisi” Aşıq Bilalın adı ilə bağlı olub, ənənəvi havalar sırasında qeyd edilir. Hətta son dövrün məhsulu olan “Şirvan peşrovu” da Aşıq Yanvar tərəfindən yaradılaraq, Peşrovlar silsiləsinə daxil edilmişdir. Lakin bəzi nümunələr də var ki, son yarım əsrin məhsulu olub, əsasən Gözəlləmələr silsiləsinə daxil olan nümunələrdir (“Pənah gözəlləməsi”, “Şakir gözəlləməsi” və b.). Bundan başqa Hacıalı Hacıyevin yaratdığı “Nar ağacı nar çiçəyi” sözlərinə oxunan nümunəni bəzən Şirvana məxsus “Baş müxəmməs” də adlandırırlar. Lakin Şirvan müxəmməsləri daha çox gəraylı üstündə oxunduğu üçün, bu hava müxəmməs tipi üçün səciyyəvi olan ümumi cəhətləri özündə tamlıqla əks etdirmir. Ustad aşıqlar bu növ nümunələri ənənəvi havalardan fərqləndirərək ayrıca qrup kimi – aşıq mahnıları adlandırır.

6. Şirvan aşıq mühitində dəstə şəklində ifaçılıq ənənəsi yayılmışdır. Şirvan aşıqlarının sazları da digərlərindən pərdələrin adları ilə fərqlənir və muğamlarla adlandırılır ki, bu da, ilk növbədə, regional ənənələrlə bağlı olmuşdur. Bu ərazidə aşıq və muğam sənətinin paralel inkişafı onların qarşılıqlı əlaqəsinə səbəb olmudur. Şirvan aşıqlığına gedən yol bilavasitə xanəndəlik sənətindən keçir. Sənətə yiyələnmək üçün şagirdlər əvvəlcə ustad yanında xanəndəlik etmişdir. Şirvan aşıq mühitində dəstə tərkibinə aşıq xanəndəsi də əlavə olunmuşdur ki, bu, digər mühitlərdə müşahidə olunmur. Müasir dövrdə dəstə tərkibində aşıq xanəndəsi olmasa da, onun yerinə yetirdiyi funksiya hazırda aşıqların üzərinə düşmüşdür. Onlar havaların əvvəlində, bəzən isə möhürbənddə, yaxud həmin bəndin ikinci misrasından sonra müvafiq muğamdan bir parça ifa edirlər. Dəstə tərkibinə daxil olan balaban aləti də təkcə dəmkeş rolunu oynamır. Havanın əvvəlində aşıq sazda muğam ifa etdikdən sonra, həmin melodiya balaban tərəfindən təkrarlanır. İnstrumental hissələrdə əsas melodik xətti balabanın da ifasında eşitmək olar. Balabanın bu mühitdə aşıq dəstəsinin mühüm rola malik üzvlərindən olması öz töhfələrini vermişdir. Bunu iki tərəf üçün - həm aşıq sənəti, həm də solo balaban ifaçılığına şamil etmək olar. Dəstəyə zərb alətinin daxil olması isə havaların üslubuna təsirsiz ötüşməmişdir. Ritmik ifa üslubundan irəli gələn “Döymə Kərəmi”, “Yekbə şikəstə”

kimi havalar meydana gəlmiş, həmçinin melodiyada ritmik formulların zənginləşməsinə imkan yaratmışdır. Digər mühitlərdə təkcə aşığın yerinə yetirdiyi funksiyanı burada bir neçə nəfərin icra etməsi Şirvan aşıqlarının ifaçılıq üslubuna öz təsirini göstərmişdir. Borçalı, Tovuz, Urmiya və b. mühitlərlə müqayisədə Şirvan aşığının üzərinə düşən vokal, instrumental, ritmin ifası dəstə üzvləri arasında bölünmüş, nəticədə onların saz ifaçılığı bir qədər arxa plana keçmişdir.

7. Şirvan aşıq mühitində havaların üslub xüsusiyyətləri onların silsilələr üzrə qruplaşmasına imkan verir. Bu baxımdan ilk olaraq havaların metroritmik formulları xüsusilə qeyd olunmalıdır. Silsilələr üzrə qruplaşan havaları birəşdirən cəhətlər, onların tiplər üzrə bölgüyə ayrılmasına imkan yaradır. Müəyyən silsilə havalar vardır ki, onların tipoloji xüsusiyyətlərinin təyinində poetik mətnin forması da əhəmiyyət daşıyır. Məsələn, Peşrovlar hər zaman gəraylı ("Şəmsi-Qəmər peşrovu" istisna olmaqla), Müxəmməslər müxəmməs və ya gəraylı, Şikəstələr qoşma şeir formasına oxunurlar. Şirvan aşıq havalarının silsilələr üzrə qruplaşmasında əhəmiyyətli rol oynayan cəhət onların ritmik xüsusiyyətləridir. Bu özünü istər zərb alətinin müşayiətində, istərsə də melomisraların metroritmik formullarında göstərir. Belə ki, Peşrovları, Gəraylıları, Müxəmməs və Şəşəngiləri, eləcə də digər silsilə havaları bir-birindən melomisralarda aydın nəzərə çarpan metroritmik formullar fərqləndirir. Dissertasiya işində hər bir tip üçün xarakterik olan melodik formul müəyyənləşmiş və onun variantının yaranmasına təsir edən poetik mətn xüsusiyyətləri, melobəndə əlavə və nida əlavələrinin təsiri qeyd edilmişdir.

8. Şirvan aşıq havalarının hər biri milli musiqimizi özündə əks etdirən məqam xüsusiyyətlərinə malikdir. Bu mühitin nümayəndələrinin muğam sənətinə dərindən yiyələnməsi, ifaçılıqda və havaların məqam xüsusiyyətlərinin formalaşmasına öz müsbət təsirini göstərmişdir. Rast, şur, segah, bayatı-Şiraz, şahnaz məqamlarının səs sırasına uyğun olan havaların hər birində əsas intonasiya xüsusiyyətləri eşidilir. Havaların melodiyasında diatonik və xromatik səs sırası özünü göstərir. Reçitativ-deklamasiya üslublu havalarda (Peşrovlar, Şikəstələr, Müxəmməslər) melodik inkişaf daha kiçik diapazonda baş verdiyi halda, mahnıvari havalarda

(Şəşəngilər, Gözəlləmələr, Ordubadılar) septima intervalına qədər yüksəlir.

9. Havaların məqamdaxili modulyasiyaları da onların melodik dinamikasını yüksəldir. Rast məqamına əsaslanan havalarda əsasən zil bölmədə "Şikəsteyi-fars" şöbəsinə keçid baş verir. Şur məqamında "Şur-Şahnaz", "Hicaz", segah məqamında "Manəndi-Müxalif", bayatı-Şiraz məqamına əsaslanan havalarda "Nişibi-fəraz" və "Zil Bayatı-Şiraz" şöbələrinə keçidlə müşahidə olunan məqam-intonasiya inkişafı mövcuddur. Bundan başqa bu mühitin aşıqlarının muğama dərindən bələd olması melomisraların təkrarı zamanı onları müxtəlif istinad pərdələrində tamamlaması ilə havanın intonasiya xüsusiyyətlərinin zənginləşməsinə gətirib çıxarmışdır.

Beləliklə, uzun tarixi inkişaf yolu keçən Şirvan aşıq mühiti Dostu Şirvanidən başlayaraq bu günə qədər regional ənənələrini, havacatını formalaşdıraraq Azərbaycan aşıq yaradıcılığında özünəməxsus yer tuta bilmişdir. Bu mühitin dialektoloji xüsusiyyətləri onu digərlərindən fərqləndirərək mühit kimi tanınmasına zəmin yaratmışdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Hüseynova, Z.R. Aşıq sənətində peşrov janrı // – Bakı: Konservatoriya, – 2014. №1(23), – s. 19-24.
2. Hüseynova, Z.R. Şirvan aşıqlarının musiqi repertuarına dair // Doktorantların və gənc tədqiqatçıların XIX respublika elmi konfransının materialları (II cild), – Bakı, – 2015. № 19, – s. 411-412
3. Hüseynova, Z.R. Şirvan aşıq məktəbində xanəndənin yeri // – Bakı: Qobustan, – 2016. № 1, – s. 35-36.
4. Hüseynova, Z.R. Aşıq havalarının bölgüsü // – Bakı: Qobustan, – 2017. № 4, – s. 63-65.
5. Hüseynova, Z.R. Şirvan aşıqlarının mahnı janrında bəzi üslub xüsusiyyətləri // III Beynəlxalq Həmzə-Nigari Türk dünyası mədəni irsisimpoziumu materialları, – Şamaxı. – 17-18 may, 2017. № 3, – s. 456-458.

6. Hüseynova, Z.R. Şirvan aşıq havalarının dastanlarda yeri və rolu barədə // – Bakı: Elmi əsərlər, – 2018. № 35, – s. 177-182.
7. Hüseynova, Z.R. Şirvan aşıq havalarının ritm məsələlərinə dair // İSME – Beynəlxalq musiqi təhsili cəmiyyəti 33-cü dünya konfransı, – Bakı, – 15-20 iyul, 2018. № 33, – s. 218-222.
8. Huseynova, Z.R. Şirvan aşık ortamının karakteristik özellikleri // XIV Uluslararası türk sanatı, tarihi ve folkloru kongresi /sanat etkinlikleri (XIV. İnternational turkic art, history and folklore congress / art activities), – Türkiye, – 11-13 novomber, 2020. № 71, – s. 337-339
9. Huseynova, Z.R. Şirvan aşık ortamında icra geleneklerine dair // Uluslararası Kültür ve Sanatı Sempozyumu (3. cilt). Etimesgut, – Türkiye, – 29-30 ekim, 2020. № 5, – s. 345-346
10. Huseynova, Z.R. Şirvan aşık ortamına ait muhammes havalarının tür özellikleri // V Uluslararası Bilimsel Araştırmalar Kongresi, (IBAD-2020)/ (5 th International Scientific Research Congress (IBAD-2020)), – Türkiye, – 1-2 eylül, 2020. № 5, – s. 445-448.
11. Hüseynova, Z.R. Şirvan aşıqlarının "Zarıncı" şikəstə havası // – Naxçıvan: Axtarışlar, – 2021. № 3, – s.189-194.
12. Гусейнова, З.Р. Сравнительная характеристика азербайджанских пешровов и турецких пешревов // – Turkey: İnternational journal of social, humanities and administrative sciences, – 2021. № 7, – s. 1762-1767.
13. Huseynova, Z.R. Azerbaycan aşıq sanatında Şirvan aşıq ortamının rolü // – Turkey: Pearson journal of social sciences & humanities, – 2021. № 6, – s.104-112.
14. Hüseynova, Z.R. Şirvan aşıqlarının şəşəngi havaları // Şərq və Qərb musiqi mədəniyyətlərinin dialoqu, – Bakı, – 2022. № 1/90, – s. 132-138.
15. Hüseynova, Z.R. "Əlicadı peşrovu"nun bəzi üslub xüsusiyyətlərinə dair // VI. International "Başkent"congress on physical, social and health sciences, – Turkey, – 27-28 ağustos, 2022. № 6, – s. 1062-1069.
16. Huseynova, Z.R. Şirvan aşık havalarında darb aletlerinin rolü // – Türkiye: Türk Müziği dergisi, – 2023. № 4, – s. 429-437.

17. Huseynova, Z.R. 6/8 metrik ölçüye dayalı şirvan aşık havalarının ritmik özellikleri // International Scientific Symposium Azerbaijan Culture and Music dedicated to the 115th anniversary of the birth of Azerbaijani composer Asaf Zeynalli, Turkey, – 18 mart 2024, № 1, – s. 143-150.





28

Dissertasiyanın müdafiəsi 30 iyun 2025 -ci il tarixində saat 11:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.05.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 45023 işarə

Tiraj: 100